
*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 250 (21.660)**

***30 dekabr 2016-cı il, cümə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


*Rəsmi xronika*



Dekabrın 29-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sabunçu rayonunun Zabrat qəsəbəsində inşa olunmuş yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün sosial reabilitasiya mərkəzinin, 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacağın, həmçinin yetkinlik yaşına çatmayanlar üçün sosial sığınacaq və reabilitasiya mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri açılışda iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün sosial reabilitasiya mərkəzinin, 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacağın, həmçinin yetkinlik yaşına çatmayanlar üçün sosial sığınacaq və reabilitasiya mərkəzinin inşası Nazirlər Kabinetinin müvafiq sərəncamları əsasında aparılıb.

Dövlətimizin başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsiblər.

Azərbaycan Prezidenti, xanımı və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış olublar.

* * *

Dekabrın 29-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Bakının Nərimanov rayonunda Uşaq Bərpa Mərkəzinin yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri tədbirdə iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verib. Bildirilib ki, 2003-cü ildən fəaliyyət göstərən Uşaq Bərpa Mərkəzinin binasında indiyə qədər əsaslı təmir və yenidənqurma işləri aparılmamışdı. 2015-ci ildə mərkəzdə başlayan yenidənqurma işləri artıq yüksək səviyyədə başa çatdırılıb.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İranın rabitə və informasiya texnologiyaları naziri ilə görüşmüşdür

İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, İran-Azərbaycan hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının həmsədri Mahmud Vaezinin rəhbərlik etdiyi nümayəndə heyəti muxtar respublikaya səfərə gəlmişdir.

Dekabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonaqları salamlamış, Mahmud Vaezini muxtar respublikada görməkdən məmnunluğunu bildirərək demişdir: Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin əsası ötən əsrin 70-ci illərində qurulmuşdur. Həmin dövrdə hər iki tərəfdən Araz çayı üzərində 22 meqavat gücündə su elektrik stansiyası tikilərək istifadəyə verilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin 1992-ci ilin avqust ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi İran İslam Respublikasına səfərindən sonra isə əlaqələrin inkişafında yeni mərhələnin əsası qoyulmuşdur. Ulu öndər ölkəmizə rəhbərliyi dövründə İranla əlaqələrin inkişafı sahəsində mühüm tədbirlər həyata keçirmişdir. Bu gün də Azərbaycan-İran əlaqələri hər iki ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Bu əlaqələr hər iki tərəf üçün faydalıdır. Azərbaycan-İran hökumətlərarası



iqtisadi əməkdaşlıq komissiyası da əlaqələrin inkişafına töhfə verir. Bu gün Naxçıvanda komissiyanın yekun iclas keçirməsi və protokolun imzalanması mühüm əhəmiyyətə malikdir.

Ali Məclisin Sədri demişdir ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında elm, təhsil, energetika və iqtisadi-ticarət sahələrində əlaqələr inkişaf etdirilir, gömrük-keçid məntəqələri səmərəli fəaliyyət göstərirlər. Bu ilin ötən dövründə 450 minə yaxın insan Naxçıvandan İrana və İrandan Naxçıvana gəlmişdir. Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarının istifadəyə verilməsi də hər iki tərəfdən gediş-gəlişin artmasına səbəb olacaqdır.

Ali Məclisin Sədri əlaqələrin inkişafında xidmətləri olanlara təşəkkürünü bildirmişdir.

İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi Naxçıvanda 18 il bundan əvvəl olduğunu bildirmiş, ötən əsrin 90-cı illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə muxtar respublikada görüşlərini xatırlatmış, son illər Naxçıvanda əldə olunan inkişafın məmnunluq doğurduğunu qeyd etmişdir. Bildirilmişdir ki, İran İslam Respublikası Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir. Azərbaycan-İran hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının yekun iclasının və Azərbaycan-İran Biznes Forumunun Naxçıvanda keçirilməsi, Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarının fəaliyyətə başlaması ikitərəfli əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. İqtisadi-ticarət, kənd təsərrüfatı, səhiyyə və digər sahələrdə həyata keçirilən birgə tədbirlər gələcək əməkdaşlıq üçün şərait yaradır.

Mahmud Vaezi nümayəndə heyətinə göstərilən diqqətə görə minnətdarlıq etmişdir.

Sonra hədiyyələr təqdim olunmuşdur.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dünya Azərbaycanlılarının Həmrəylik Günü qeyd olunub

***AMEA Naxçıvan Bölməsində keçirilən "Dünya azərbaycanlılarının həmrəyliyi" mövzusunda tədbiri giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixindən danışıb. Qeyd olunub ki, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsas məzmununu xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq, Azərbaycançılıq duyğuları və ideyaları təşkil edir.***

"Dünya azərbaycanlılarının həmrəyliyi milli birliyin möhkəmləndirilməsi yolunda mühüm amildir" mövzusunda məruzə edən AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov bildirib ki, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi və dünya azərbaycanlılarının vahid ümummilli ideologiya – Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşdirilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1990-1993-cü illərdə Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini məhz xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. 1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul olunmuşdur.

Vurğulanıb ki, 1993-cü ildə Azərbaycanın parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı ağır bir dövrdə xalqımızın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan böyük dövlət xadimi Heydər Əliyev ölkəni parçalanmaq, məhv olmaq təhlükəsindən qurtarıb, Azərbaycançılığı nəinki dövlətçilik konsepsiyasına, hətta bütün dünyada yaşayan azərbaycanlıların ümummilli ideologiyası səviyyəsinə yüksəldib. Ümummilli liderimiz 2001-ci ilin 23 mayında ilk dəfə olaraq "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Sərəncam imzalayıb və həmin ilin noyabr ayının 9-10-da Bakıda Dünya Azərbaycanlılarının ilk qurultayı keçirilib. Məhz bundan sonra dünyada yaşayan azərbaycanlıların təşkilatlanması üçün yeni şərait yaranıb.

Sonrakı dövrdə Azərbaycanda dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi artıq gözəl ənənəyə çevrilib, 2006-cı il mart ayının 16-da Dünya Azərbaycanlılarının II, 2011-ci il iyul ayının 5-6-da III, cari il iyun ayının 3-də isə IV qurultayları keçirilib.

Qeyd edilib ki, bu gün Azərbaycanın iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi, Cənubi Qafqazda əsas söz və nüfuz sahibi olması dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi daha da ruhlandırıb, onların müstəqil dövlətimizin xoşbəxt gələcəyinə inamının, özünüdərk hissinin güclənməsinə, ümummilli maraqlar ətrafında sıx birləşməsinə zəmin yaradıb. Müstəqil Azərbaycanın əldə etdiyi uğurlar onların milli şüurunu gündən-günə möhkəmləndirir. Odur ki, müxtəlif ölkələrdəki Azərbaycan diaspor təşkilatları soydaşlarımızın təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətinin məqsədyönlü xarakter alması naminə daha faydalı iş aparır, ölkəmizi daha yaxından tanıtdırmaq üçün müvafiq tədbirlər həyata keçirirlər.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli çıxış edərək bu günün əhəmiyyətindən bəhs ediblər.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tədbirə yekun vuraraq bütün kollektivi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edib, 2017-ci ilin hər bir elmi işçi üçün uğurlarla yadda qalacaq il olmasını arzulayıb. Vurğulanıb ki, qarşıya qoyulan vəzifələrə və verilmiş tövsiyələrə uyğun olaraq 2017-ci il AMEA Naxçıvan Bölməsinin həyatında ciddi dönüş ili olmalı və elm adamları bu yolda bütün səylərini ortaya qoymalıdırlar.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin dekabr ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

“Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 mart tarixli 27 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 dekabr tarixli qərarı qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 22 dekabr tarixli qərarı ilə “Şahtaxtı və Xıncab bələdiyyələri ərazisində köhnə məktəb binası üçün ayrılmış torpaq sahəsinin dövlət mülkiyyətindən bələdiyyənin ehtiyat fonduna keçirilməsi haqqında” Kəngərli Rayon İcra Hakimiyyəti başçısının 2016-cı il 13 dekabr tarixli 61 nömrəli, “Nəzərabad bələdiyyəsi ərazisində Didivar kənd köhnə məktəbi üçün ayrılmış torpaq sahəsinin dövlət mülkiyyətindən Nəzərabad bələdiyyəsinin ehtiyat fonduna keçirilməsi haqqında” Babək Rayon İcra Hakimiyyəti başçısının 2016-cı il 13 dekabr tarixli 94 nömrəli sərəncamları təsdiq edilmişdir.

Kəngərli rayonunun Qabıllı, Yeni Kərki, Xıncab və Şahtaxtı bələdiyyələrinin mülkiyyətində olan torpaq sahələri, Babək rayonunun Nəzərabad, Güznüt, Çeşməbasar, Göynük, Naxışnərgiz və Hacıvar bələdiyyələrinin mülkiyyətində olan torpaq sahələri kateqoriyası dəyişdirilərək dövlət mülkiyyətinə alınmışdır.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 23 dekabr tarixli qərarı ilə “Obyektin Tikintisinə İcazə”nin və “Tikintiyə icazə barədə Xüsusi Nişan”ın forma və məzmununun təsdiq edilməsi barədə”, “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli qərarında dəyişikliklər edilməsi barədə” qərarları qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 2016-cı il 27 dekabr tarixində “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 18 sentyabr tarixli 66 nömrəli qərarı ilə təsdiq edilmiş “Taxıl məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsi qaydaları haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə”, Şərur rayon Çomaxtur kənd orta məktəbinin, Püsyan kənd həkim ambulatoriyasının, Danyeri kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin, Çomaxtur və Tumaslı kənd bağçalarının balansında olan, lakin istifadə edilməyən torpaq sahələrinin müvafiq bələdiyyələrin ehtiyat fonduna verilməsi və Şahbuz rayonunun Kolanı kəndində dövlət mülkiyyətində olan köhnə məktəb binasının sökülməsi nəticəsində boş qalmış torpaq sahəsinin Kolanı bələdiyyəsinə ehtiyat fonduna verilməsi barədə qərarları qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin həmin tarixdə Şərur, Ordubad, Culfa və Şahbuz rayonlarının bir neçə kənd bələdiyyələrinin mülkiyyətində olan torpaq sahələrində dövlət mülkiyyətinə aid tikililər aparıldığı üçün həmin torpaq sahələrinin kateqoriyasının dəyişdirilərək dövlət mülkiyyətinə verilməsi barədə qərarları da qəbul edilmişdir.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi güclü maddi-texniki bazaya malikdir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.*

Nazirlik ötən dövrdə inkişaf edərək maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, qarşıya qoyulmuş vəzifələri peşəkarlıqla yerinə yetirən şəxsi heyət formalaşmışdır. Bu gün muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində və tikintidə insanların təhlükəsizliyinin, eləcə də sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması sahələrində məqsədyönlü tədbirlər həyata keçirilir. Nazirliyin əməkdaşları fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq nümayiş etdirirlər.

Ötən dövrdə nazirliyin müvafiq struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. Belə ki, 2007-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası və texniki qarajları yenidən qurularaq istifadəyə verilmiş, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələrinin, 2013-cü ildə Şərur və Babək rayon şöbələrinin, 2014-cü ildə isə Sədərək rayon şöbəsinin inzibati binaları və texniki qarajları tikilərək istifadəyə verilmişdir. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə nazirliyin inzibati binasının açılışı olmuşdur. Ötən dövrdə Mülki Müdafiə Alayının maddi-tədris bazasının təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmış, bu məqsədlə təlim mərkəzi istifadəyə verilmişdir. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılmış, Naxçıvan şəhərində zabit-gizir ailələri üçün 48 mənzilli yaşayış binası tikilmişdir. Həmçinin bu günə kimi Mülki Müdafiə Alayına, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarına müasirtipli yanğınsöndürmə avtomobilləri və müxtəlif təyinatlı nəqliyyat vasitələri verilmişdir. 2010-cu ildə isə vertolyot gətirilmiş, Mülki Müdafiə Alayında və Batabat qoruğu ərazisində uçuş-enmə meydançaları hazırlanmışdır.

Nazirliyin mərkəzi aparatı və struktur qurumlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi və peşəkarlığının artırılması istiqamətində də mühüm tədbirlər görülmüşdür. Bu dövrdə 300-dən artıq əməkdaş xidmətə qəbul edilmiş, əməkdaşlar Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, Bakı Yanğın-Texniki Kollecinə, Ukrayna Respublikasının Xarkov şəhərindəki və Belarus Respublikasının Minsk şəhərindəki akademiyalara təhsil almağa göndərilmişdir. Keçirilən təlim və məşğələlər də peşə vərdişlərinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Ötən dövrdə şəxsi heyətin iştirakı ilə komanda-qərargah, taktiki-xüsusi təlimlər, yanğın təhlükəsizliyi şöbələrinin hər birində xidmətin təşkili üzrə gecə və gündüz məşğələləri keçirilmişdir.

Bu gün Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən tikinti materiallarının dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması və həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bundan başqa, əhalinin ehtimal olunan radioaktiv, kimyəvi zəhərlənmələrdən mühafizəsinin təşkilində operativliyi təmin etmək məqsədilə müvafiq tədbirlər görülmüş, bu sahədə maddi-texniki baza gücləndirilmişdir. Həmçinin muxtar respublikada taxılın saxlanma şəraiti, yanğın və texniki təhlükəsizlik məsələləri mütəmadi olaraq yoxlanılır. Ötən dövrdə əhalinin və işçilərin fövqəladə hallara hazırlığının təmin edilməsi məqsədilə mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarə orqanlarında və təsərrüfat obyektlərində mülki müdafiə təlimləri, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında 10 min 940 nəfərin iştirakı ilə 205 müxtəlif səpkili konfrans və digər maarifləndirici tədbir keçirilmiş, kütləvi informasiya vasitələrində məlumatlar təqdim olunmuşdur.

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti bundan sonra da fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində quracaq, əhalinin və ərazilərin təhlükəsizliyi naminə təxirəsalınmaz tədbirləri layiqincə yerinə yetirəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

***Alış-veriş etmək sosial həyatımızın mühüm tərkib hissəsidir. Tələbatların ödənilməsi üçün ehtiyaclara və maddi imkanlara görə hər gün dükan, bazar və marketlərə üz tutur, alış-verişlər edirik. Şübhəsiz, bir çoxlarının gündəlik qayğılarımızın bir hissəsi kimi baxdığı, bəzilərinin isə, sadəcə, vaxt keçirib, əylənmək vasitəsi kimi yanaşdığı alış-verişdən hər kəs razı qalmaq istəyir. Bu da təbiidir. Çünki cəmiyyətin inkişafı ilə hər bir sahədə olduğu kimi, pərakəndə ticarət xidmətləri sahəsindəki müasirləşmə də özünü vacib tələbat kimi göstərir.***

## Müasir ticarət xidmətləri hər birimizin ürəyincədir



Vaxt var idi ki, yarıqaranlıq, uçuq-sökük kənd mağazalarına, yaxud iri dəmir qapılı şəhər qastronomlarına təzə mal gələn kimi mağaza müdiri dərhal dost-tanışlarına xəbər göndərib gizlincə həmin malları satardı. Sadə camaatın da qismətinə aylarla, hətta illərlə rəflərdə toz basıb qalmış rezin ayaqqabılar, kibrit, paltar sabunu və elektrik lampaları kimi ucuzvarı mallar və bir də heç vaxt düymələri düz gəlməyən dəbsiz köynək və kostyumlar qalardı. Ən sadə istehlak mallarının çatışmadığı həmin “piştaxta altından satış”ın tüğyan etdiyi Sovet dönəmi artıq arxada qalıb. Bir anlığa geri qayıdıb yenə həmin günlərə bir daha baxanda adamların rifahı üçün lazım olanların deyil, lazım olmayan qərarların nəyə görə verilməsi indi çox düşündürücü gəlir. Bəli, düşünəndə ki, böyük bir imperiyada adamlar kərə yağı, yaxud təzə ayaqqabı almaq üçün saatlarla növbəyə dururdularsa, bəs onda, görəsən, hansı yaşayış keyfiyyətindən danışmaq olardı? Halbuki insanın yaşadığı həyatdan zövq alması üçün elə o dövrdə də kifayət qədər iqtisadi və mədəni imkanlar olub. Ancaq iqtisadi sahədə verilən qərarlarda bu potensialın məhz keyfiyyətli yaşayış və yüksək həyat səviyyəsi naminə istifadə olunması üçün əsl müdriklik və uzaqgörənlik lazım olduğunu yalnız indi görürük.

O dövrdən bəri çox şey dəyişilib. Müasir ticarət xidmətləri olduqca rəngarəng və çoxçeşidlidir. Bütün dünyada olduğu kimi, bizdə də ticarət xidmətləri sürətlə modernləşir, insanları maraqlandıran bütün yeniliklər burada da tətbiq olunur. Sual oluna bilər ki, bunlar hansı yeniliklərdir? Elə götürək yaşadığımız Naxçıvanı. Diqqətlə baxsaq, görərik ki, indi insanların rahat alış-veriş etmələri üçün hansı şərait yaradılıb. İndi insanlar istəsələr öz alış-verişlərini internetdən, məhəllədəki yaraşıqlı marketlərdən, onlarla və yüzlərlə mağazanın yerləşdiyi iri ticarət mərkəzlərindən, kəndlərimizdəki modern xidmət mərkəzlərindən edə bilirlər. Ənənəvi Şərq tipli bazarlar və həftəsonu yarmarkaları da Naxçıvan əhalisinin müxtəlif çeşidli ərzaq və təzə meyvə-tərəvəz məhsulları ilə təmin olunmasında mühüm rol oynayır. İndi daha alış-veriş edərkən əsəb gərginliyi deyil, göstərilən xidmətlərdən məmnunluq hissləri keçirir, yaradılmış bu şəraitə görə minnətdarlıq edirik.

Ticarət həm də bir idarəetmə sahəsidir. Belə ki, burada göstərilən xidmətlərin səviyyəsi dövləti də ciddi şəkildə maraqlandırır. Xidmətlərin yüksək standartlar səviyyəsində qurulması, sığorta, təhlükəsizlik, istehlakçı hüquqlarının qorunması, dövlət büdcəsinə vergilərin cəlb olunması və sair kimi məsələlərin həlli dövlətin mühüm tənzimləmə funksiyalarındandır. Əhalinin istehlak mallarına olan tələbatının ödənilməsi ilə yanaşı, alıcılıq qabiliyyətinin də qorunub saxlanılması üçün ticarət xidmətlərində tətbiq edilən hər cür yenilik bu baxımdan diqqətçəkicidir. Alış-veriş zamanı insanların ən çox maraqlandıran sürətli xidmət və informasiya təminatı ilə yanaşı, ailə büdcəsinə qənaət edilməsinə imkan yaradan yeniliklər müasir ticarət xidmətlərində hər kəsin ürəyincədir.

Müasir ticarət mərkəzlərimizdə əhaliyə nümunəvi ticarət xidmətləri göstərilməsi üçün hər cür şərait yaradılıb. Bir-birindən yaraşıqlı, geniş və işıqlı market və mağazalar, təyinatına görə uyğun rəflərdə yerləşdirilmiş bol çeşiddə istehlak malları, lazım olan müxtəlif məhsulların rahat seçim imkanı, ödənişlər üçün tətbiq olunan elektron alətlər və müştərilərlə gülərüz rəftarı ilə seçilən gənc satıcılar müasir ticarət şəbəkəsinin ümumi portretidir. Hər gün yüzlərlə və hətta minlərlə alıcının axın etdiyi iri marketlərdə bütün işlərin qaydasında getməsi üçün yaradılmış komfortlu şərait, son nəticədə, insanların rifahında və sahibkarın uğurunda özünü göstərir.

Ticarət xidmətlərində mühüm tələbatlardan biri informasiya komfortudur. Şübhəsiz, alış-veriş etmiş hər bir alıcı nəyi haradan və neçəyə aldığını, ümumən nə qədər pul xərclədiyini bilmək, aldığı mallara görə zəmanət almaq istəyir. Buna görə də indi müasir standartlara cavab verən marketlərimizdə tətbiq olunan optik oxuyuculu elektron satış servisləri, alıcılara təqdim olunan satış qəbzləri adamların alış-verişdən sonra öz büdcələrinə nəzarət etmələri üçün çox vacibdir. Düzdür, bunun əhəmiyyətini bilməyən bəzi alıcılar kassadan ayrılmamış bu qəbzləri atır, oradakı məlumatlardan xəbərsiz qalır, hüquqlarından istifadə edə bilmirlər. Halbuki burada alınmış hər bir malın qiyməti, ödənmiş verginin həcmi açıqca göstərilir və hər hansı bir səbəbdən müştəri aldığı malı geri qaytarmaq istədiyi halda həmin satış qəbzləri onlar üçün zəmanət rolunu oynayır. Naxçıvan şəhərində çox sayda belə market və ticarət mərkəzləri vardır ki, onların xidmətlərindən yararlandıqda həmin informasiya komfortundan istifadə edir, ailə büdcəsinə qənaət etmək üçün düzgün qərarlar verə bilirik. Qeyd edək ki, belə xidmət şəhərimizdəki turistlər üçün də rahatlıq yaradır, xidmətdəki imici yüksəldir. Digər bir tərəfdən, kompüterlə idarə olunan belə satış xidmətləri elə sahibkarların öz işlərini də asanlaşdırır. Belə ki, onlar bu qayda ilə işlədikdə öz mal dövriyyəsini və kassa əməliyyatlarını istənilən vaxtda nəzarət-təftiş etmək, satılan və satılmayan mallar haqqında gündəlik tələbatı müəyyən etmək, bir sözlə, müştərisini məmnun yola salmaq imkanı qazanır. Yaxşı haldır ki, şəhərimizdə bu cür müasir tələblər səviyyəsində öz işini quran ticarət obyektlərinin sayı artmaqdadır. Çox deyil, beş-on il əvvəl belə mağaza və marketlər bir neçə idisə, indi onlarla sayda nümunəvi mağazada rahat alış-veriş etmək mümkündür. Bir alıcı kimi inanırıq ki, belə nümunəvi praktikanı mənimsəməyən digər ticarət obyektləri də gələcəkdə öz işlərini günün tələbləri səviyyəsində quracaq, nümunəvi ticarət obyektləri sırasına qoşulacaqlar.

**✍ Əli CABBAROV**

## AMEA Naxçıvan Bölməsində keçilən interaktiv dərsi muxtar respublikanın 194 təhsil müəssisəsindən izləyiblər

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına təkan verib.*



2014-cü il iyulun 18-də muxtar respublika Ali Məclisində təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin distant təhsilin muxtar respublikada tətbiqi üçün müvafiq qurumlara müxtəlif tapşırıqlar verməsi, tapşırıqların uğurlu icrası bu sahədə böyük nailiyyətlər qazanılmasına imkan yaradıb. Bu günə qədər müxtəlif muzeylər və tədris müəssisələri arasında keçilən interaktiv dərslər böyük maraqla qarşılanıb və effektivliyi ilə seçilib.

AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə tədbirlər planına uyğun olaraq bu tədris ilinin sonunadək bölmənin elmi əməkdaşları interaktiv dərs keçəcəklər.

Dünən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən "Naxçıvanın tarixi abidələri" mövzusunda interaktiv dərs keçilib.

AMEA Naxçıvan Bölməsindən keçilən və 194 təhsil müəssisəsi şagirdlərinin internet vasitəsilə elektron lövhədən izlədiyi dərs zamanı Vəli Baxşəliyev öncə muxtar respublikada tarixi abidələrin qeydə alınması və pasportlaşdırılması sahəsində həyata keçirilən işlər barədə məlumat verib. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası ərazisində olan tarixi və tarixi memarlıq abidələri, arxeoloji tədqiqatlar zamanı əldə edilmiş maddi-mədəniyyət nümunələri sübut edir ki, Naxçıvan bəşər sivilizasiyasının ən qədim yaşayış məskənlərindən biridir. O, Naxçıvan ərazisində yayılmış Daş dövrü, Tunc dövrü və Dəmir dövrü abidələrinin xarakterik xüsusiyyətləri haqqında da şagirdlərə məlumat verib. Bildirib ki, xüsusilə son illər ərzində aparılan arxeoloji tədqiqatlar muxtar respublika ərazisində bir sıra tarixi abidələrlə bağlı faktların daha da dəqiqləşdirilməsinə və yeni abidələrin üzə çıxarılmasına imkan verib. Naxçıvan ərazisində yerləşən I Kültəpə abidəsində əvvəllər arxeoloq Osman Həbibullayev tərəfindən aparılmış tədqiqatlardan danışan AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev 2013-cü ildən sonra bu abidədə yeni tədqiqatlara başlanıldığını qeyd edib. Aparılan son tədqiqatlar sübut edir ki, I Kültəpə abidəsi bütün Cənubi Qafqazda ən qədim Neolit abidəsidir. Bundan əlavə, dərsdə şagirdlərə Şorsu, Zirincli, Uçan Ağıl, Uzunoba, Ovçular təpəsi, Ərəbyengicə, I Maxta kimi arxeoloji abidələr haqqında məlumat verilib, bu abidələrdə aparılmış tədqiqatlar, aşkar edilmiş əmək alətləri və digər maddi-mədəniyyət nümunələri şagirdlərə slayd vasitəsilə nümayiş etdirilib. Dərsdə abidələrin yaşının müəyyən edilməsi üçün aparılmış radiokarbon analizlərinin mahiyyəti və nəticələri izah edilib. Dərs zamanı Naxçıvanın ən qədim sakinlərinin ətraf regionlarla əlaqələri, köç yolları, antropoloji xüsusiyyətləri barədə də məlumatlar şagirdlərin diqqətinə çatdırılıb. Qədim tayfaların yaşayış xüsusiyyətləri, məşğuliyyətləri, həyat tərzləri, inanc sistemləri ilə bağlı aparılan araşdırmalar sübut edir ki, onlar xalqımızın ulu əcdadları olublar.

İnteraktiv dərs zamanı təqdim olunan müxtəlif fotoşəkillər və xəritələr dərsi izləyən şagirdlər tərəfindən maraqla qarşılanıb.

✍ Elnur KƏLBİZADƏ



Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəb



Şərur rayon Dizə kənd tam orta məktəbi



Şahbuz rayon Qızıl Qışlaq kənd tam orta məktəbi

---

*Bu münasibətlə Naxçıvan şəhərindəki "Sarvanlar" məscidində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarənin rəisi Vüqar Babayev çıxış edərək bildirib ki, bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda dövlət və din münasibətləri yüksək səviyyədədir.*

## Din xadimlərinə yeni geyim dəstləri verilib

Muxtar respublikamızda milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına xüsusi önəm verilməsi, dini etiqad azadlığı, dini qurumların dini ayin və mərasimləri sərbəst yerinə yetirməsi üçün yaradılan şərait haqqında danışan Vüqar Babayev qeyd edib ki, hər bir cəmiyyətdə milli və mənəvi dəyərlərin qorunması həmin cəmiyyətin inkişafı ilə mütləq şəkildə əlaqəlidir. Çünki hər bir xalq özünəməxsus dəyərlərin daşıyıcısıdır. Azərbaycan xalqı da tarixən öz milli, əxlaqi və mədəni dəyərləri ilə böyük inkişaf yolu keçib. Qədim Naxçıvan diyarı isə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tarixən milli və mənəvi dəyərlərimizin qorunub saxlanılmasında mühüm rol oynayıb.

Bildirilib ki, cari ildə dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, eləcə də icmaların fəaliyyətinə nəzarət edilməsi məqsədilə hər ay Naxçıvan şəhərindəki "Sarvanlar" məscidində 17 icma rəhbərinin iştirakı ilə iclaslar təşkil olunub. Bu tədbirlərdə yas mərasimlərinin keçirilməsinin qanuni çərçivəyə salınması, din xadimləri tərəfindən vahid geyim formasına riayət olunması, dini və məzhəb ayrı-seçkiliyi zəminində baş verə biləcək halların vaxtında qarşısının alınması istiqamətində müzakirələr aparılıb, yerlərdə profilaktik tədbirlər həyata keçirilib.

Qeyd olunub ki, Naxçıvandakı məscidlərin təmizliyinə ciddi diqqət yetirilir, məscidlərdə İslam dininin əsaslarına uyğun ibadət ediləcək tədbirlərin təşkil olunması üçün müvafiq işlər görülür, tolerantlıq prinsiplərinin qorunmasına səy göstərilir, müxtəlif məzhəblərə məxsus şəxslərin məscidlərdə birgə ibadət etmələri təmin olunur.

Diqqətə çatdırılıb ki, yas mərasimləri və digər dini mərasimlərdə istifadə etmələri üçün bu gün yenidən dövlət vəsaiti hesabına 210 din xadiminə qış geyim formaları təqdim olunur. Bundan əlavə, hər il olduğu kimi, bu il də muxtar respublika rəhbərinin tapşırığı ilə qarşıdan gələn bayramlar münasibətilə icma sədrlərinə pul mükafatları da verilib. Din xadimləri geyimlərinə, hərəkət və davranışlarına daim ciddi riayət etməlidirlər.

Vurğulanıb ki, 2009-cu ilin oktyabrında Bakıda keçirilən İslam Konfransına üzv ölkələrin mədəniyyət nazirlərinin 6-cı toplantısı çərçivəsində Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı elan olunub. Son illər Naxçıvanda bu sahədə həyata keçirilən tədbirlər – məscidlərin tikilməsi və yenidən qurulması, tarixi abidələrin bərpası, müasir turizm infrastrukturunun yaradılması onu deməyə əsas verir ki, 2018-ci ildə keçiriləcək tədbirə Naxçıvan indidən tam hazırdır.

Tədbirdə çıxış edən din xadimləri göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

---

## Sağlamlıq imkanları məhdud uşaqlar üçün Yeni il şənliyi təşkil edilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Yeni il şənliyi keçirilib. Bayram tədbirində Naxçıvan Uşaq Bərpa Mərkəzində müalicə alan və Regional İnformasiya Mərkəzində tədrisə cəlb edilən sağlamlıq imkanları məhdud 30 uşaq iştirak edib.

Tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı, Estetik Tərbiyə Mərkəzinin rəqs qrupu mahnı və rəqs nömrələri ilə uşaqlara xoş dəqiqələr bəxş ediblər. M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorları isə müxtəlif tamaşalardan səhnəciklər göstəriblər.

Şənlikdə iştirak edən Şaxta baba, Qar qız uşaqlarla rəqs edib, şən nəğmələr səsləndiriblər.

Sonda uşaqlara bayram hədiyyələri təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

---

## Ahıllar evində konsert

*Şahbuz şəhərindəki Ahıllar evində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə konsert təşkil edilib.*

Konsertdə bir-birindən rəngarəng mahnı və musiqilərlə Naxçıvan Musiqi Kollecinin Qədim musiqi alətləri ansamblı ahılları sevindirib.

Konsertdə bədii rəhbəri Cəlil İsmayılov olan ansamblın ifasında "Sarı gəlin", "Qara qaşın vəsməsi", "Aşiqəm", "Uca dağlar", "Gilənar", "Daşlı qala", "Ay dili-dili" və digər xalq mahnılarımız səsləndirilib. Ansamblın üzvlərindən Əbülfəz Məmmədovun, Mürsəl Tağılının, Yamin Vəliyevin, Samir İsmayılovun ifaları ahıllarda xoş ovqat yaradıb.

Bir saatdan artıq davam edən və şən musiqi nömrələri ilə zəngin olan konsert proqramı Əbülfəz Məmmədovun ifa etdiyi "Şur" təsnifi ilə yekunlaşıb.

**Xəbərlər şöbəsi**

---

## Mədəniyyət müəssisələrində çalışan fəal və istedadlı gənclərin iştirakı ilə tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan müəssisələrdə çalışan və ya təhsil alan fəal gənclərin iştirakı ilə tədbir keçirilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Pərvin Həsənovun "Dövlət gənclər siyasəti", adıçəkilən nazirliyin şöbə müdirlərindən Həsən Kərimovun "Naxçıvan mədəniyyəti bu gün", Əkbər Novruzovun "Muxtar respublikanın turizm potensialının təbliğində gənclərin rolu" mövzularında çıxışları olub.

Çıxışlarda qeyd edilib ki, muxtar respublikada dövlət gənclər siyasəti uğurla həyata keçirilir. Gənc nəslin sağlam, bilikli və vətənpərvər ruhda böyüməsi diqqət mərkəzində saxlanılır, onların cəmiyyətin bütün sahələrində fəal iştirakı təmin olunur. Son illər bu məqsədlə muxtar respublikada elektron kitabxanalar, yeni məktəb binaları, mədəniyyət evləri, ali təhsil müəssisələri üçün yeni tədris korpusları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək gənclərin istifadəsinə verilib.

Vurğulanıb ki, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, bu sahədə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, onların elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi kimi mühüm tədbirlər təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması haqqında" fərmanları muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının davamıdır. Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, onların asudə vaxtlarının səmərəli təşkili baxımından böyük əhəmiyyətə malikdir.

Tədbirin sonunda gənclərin gələcəkdə görüləcək işlər barədə fikir və təklifləri dinlənilib, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan müəssisələrin fəal və istedadlı gənclərinin toplandığı Gənclər Təşkilatının yaradılması qərara alınıb. Nazirliyin əməkdaşları Pərvin Həsənov təşkilatın sədri, Qumral Məmiyeva isə təşkilatın sədr müavini seçiliblər.

**Əli RZAYEV**

# 2016-cı ilin quruculuq ərməğanları

## Tarixi yaşadanları tarix də yaşadacaqdır


Əlincə qalası


Gülüstan türbəsi


Xanəgah Abidə Kompleksi


Xanlıqlar İmamzadəsi

*Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya, – deyib ulu Dədə Qorqudumuz. Bu dünyanın pəncərəsini çox insan açıb, ancaq o insanlardan azının əməlləri həmişəyaşarlıq, əbədiyaşarlıq qazanıb. Tarix insan əməllərindən yaranıb, tarixi abidələr də. Adəm övladı bəzi zamanlarda öz tarixini unudub; ona görə də gələcəyini görə bilməyib. Ancaq tarixdə xalqın, elin taleyi həvalə edilən elə insanlar da olub ki, onlar tarixi yaşatmaqla xalqına, elinə-obasına möhtəşəm gələcək bəxş ediblər. Tarix isə belə insanları unutmayıb, kitabına onların adlarını qızıl hərflərlə yazıb. Başqa sözlə desək, bu əbədi yazılış tarixin həmin insanlara minnətdarlığıdır, onlar vaxtın, zamanın fövqündə duran, vaxtdan uca insanlardır. Nə ötən zaman onları unutdura bilər, nə də insanların onları unutması mümkündür.*

*Tarixi abidələr hər bir ölkənin qədim tarixinin pasportudur. Necə ki bir insanın başqa bir ölkəyə keçə bilməsi mümkünsüzdü, başqa ölkədən gələn bir qonağın da daş yaddaşımız olmadan xalqı tanıması, keçmişinə bələd olması, adət-ənənələrini sevməsi imkansızdı.*

*Vaxt olub ki, tariximizin unutdurulması üçün xalqımızı gözü götürməyənlər, onun keçmişinə xor baxanlar hər şey edib, bu torpağın üstündəki abidələr yad münasibətin şimal soyuğunu, yad nəfəsini öz üzərində hiss edib, daş yaddaşımızın qorunmasına biganəlik göstərilib. Ulululardan-ulu xalqımızın tarixi uzaq ölkələrin tozlu arxivlərində ləl-cəvahirat kimi gizlədilsə də, sonunda parıldayıb, gəlin məni öyrənin, məni öz vətənimə aparın, – deyib. Və qədirbilən insanlar tərəfindən bu qiymətli xəzinə xalqımıza qaytarılıb.*

*Bu gün Naxçıvan torpağının üzərində bir-birindən dəyərli incilər parlayır. İncə bir zövqlə işlənmiş, insanın sonsuz yaradıcılıq eşqinin təcəssümü olan bu nəfis əsərlər 70 illik bir dövrün hördüyü qalın divarların arxasından çıxarılaraq yenidən həyata qaytarılıb. Bu, keçmişlə bu günün qovuşması, simurq qanadında gələn özünə qayıdış xəbəridi.*

*Əlincə, Naxçıvanqala xalqımızın qan yaddaşıdısa, Gülüstan mənəvi aləmimizin parlaq güzgüsüdü. Bu gün həmin güzgüyə baxıb əsrlər öncəsi xalqımızın həyat tərzini, adət-ənənələrini ən incə cizgiləriylə, detallarıyla görmək olar. Nuhun əzəmətlə ucalan məqbərəsi bütün dünyaya Yer üzündə ikinci bir həyatın bu torpaqda başlanmasından xəbər verirsə, Gəmiqaya abidələri xalqımızın təfəkkürü qarşısında daşların belə, tab gətirmədiyinin göstəricisidi. Möminə xatın qadının müqəddəsliyinə ucaldılan abidəm, Xan sarayım igidlər, qəhrəmanlar ocağımdı. Əshabi-Kəhfim, imamzadələrim yüz illərdir laylasıyla rahatlıq tapdığım mənəviyyat beşiklərimdi. Nə qədər ki tariximiz var, biz də yaşayacaq, var olacağıq. Tarixi yaşadanların qayğısına isə elə tarix özü qalacaq, onlar dünya durduqca xeyirxah əməlləri ilə yaşayacaqlar. Çünki əbədiyaşarlıq haqqını onlara tarixin özü verib.*

**Səbuhi HÜSEYNOV**

### Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 27 yanvar 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 59,96 kv.m ümumi, 47,32 kv.m yaşayış sahəsindən ibarət 3 otaqlı mənzil | Naxçıvan şəhəri, Şadlinski küçəsi, bina 1, mənzil 2 | 66.000 | 3.300 |
| 2. | 0,0809 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 43,56 kv.m yaşayış, 31,68 kv.m köməkçi sahədən ibarət 6 nömrəli fərdi yaşayış evi | Culfa şəhəri, H.Cavid küçəsi | 35.200 | 1.760 |
| 3. | MH seriyalı 0017559; MH seriyalı 0017560; MH seriyalı 0017561; MH seriyalı 0017562 nömrəli çıxarışlara əsasən torpaq sahəsi (kənd təsərrüfatı təyinatlı) | Babək rayonu, Şıxmahmud kəndi | 20.000 | 1000 |
| 4. | MH seriyalı 0017733; MH seriyalı 0017734 nömrəli çıxarışlara əsasən torpaq sahəsi (kənd təsərrüfatı təyinatlı) | Babək rayonu, Cəhri kəndi | 15.000 | 750 |
| 5. | 0,1098 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 65,37 kv.m yaşayış, 32,5 kv.m köməkçi sahədən ibarət 3 otaqlı fərdi yaşayış evi | Babək rayonu, Cəhri kəndi | 10.000 | 500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Baş İdarəsindəki AZ87AİİB45090249443100007500 və "Kapital Bank" ASC-nin Culfa rayon filialındakı hesablaşma hesabına 23 yanvar 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 27 yanvar 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

***Babək qəsəbə 1 nömrəli tam orta məktəbdə Babək Rayon Gənclər və İdman İdarəsinin, Babək Rayon Təhsil Şöbəsinin və Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının Babək rayon bölməsinin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə rayonun ümumtəhsil məktəblərinin komandaları arasında voleybol turniri keçirilib.***

## Voleybol turniri



Turnirin keçirilməsində məqsəd gənclərin fiziki hazırlığının gücləndirilməsi, məktəblərarası idman əlaqələrinin inkişaf etdirilməsi, yeniyetmə və gənclər arasında voleybol idman növünün kütləviliyinə nail olmaqdan ibarətdir.

Turnir başlanmazdan öncə Babək Rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı və Təhsil Şöbəsinin əməkdaşı Rüstəm Bağırov Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə şagirdləri təbrik edib, voleybol idman növünün inkişafından, kütləvi hal alması üçün görülən işlərdən danışıb və komandalara uğurlar arzulayıblar.

Yarışın baş hakimi Abbasəli Ələsgərov komandalara yarışın qaydaları haqqında məlumat verib. Turnirdə 96-ya yaxın voleybolçu mübarizə aparıb. Yekunda I yerə Sirab kənd tam orta məktəbinin, II yerə Kərimbəyli kənd tam orta məktəbinin, III yerə isə Zeynəddin kənd tam orta məktəbinin komandaları layiq görülüblər.

Qalib komandalara təşkilatçılar tərəfindən diplom və kuboklar təqdim edilib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 980